Ədalət.- 2023.- 8 noyabr, №43.- S.8.

# Əntiqə Rəşidin ilk kitabı çapdan çıxdı: "Ömrümün köç günlüyü"

**Deməli, bu ilin aprelində Millət vəkili, yazıçı Aqil Abbasın "Çay qırağında bitib, susuz qalan ağacların sağlığına" romanının təqdimat mərasimi keçirilirdi. Mərasimi işıqlandırmaq mənə də nəsib olmuşdu. Məqalənin girişində yazmışdım ki, tədbir deməyək, tədbir deyiləndə bir az rəsmiyyət gəlir ağıla, bir az quruluq tökülür sözlərdən, iştirakçıların uz- gözündən:" Yox, tədbir deməyə adamın dili gəlmir! Əməlli,- başlı bir xeyir iş, xeyirli məclis!**

Elə bil çoxdan bir -birini görməyən yaxınlar, qohumlar bir yerə yığışmışdı. Nətər eldə- obada bir əzizinin xeyir işi, toy mərasimi olur, hamı sevinə-gülə yığılır ha o əzizin evinə.. eynən heylə!" Bu gün həsrətlə çapını gözlədiyim "Ömrümün köç




günlüyü" ilk kitabım artıq əlimdədi və indi başa düşdüm ki, adamın ki-




tabının çapdan çıxması elə-belə sıradan bir şey deyil, əsl toy-şənlik abu-havasıdır. İlk təbrik edən də elə Aqil müəllim oldu! Bir -birinin xeyir işinə sevinən iki adam!

Ümid edirəm ki, Aqil Abbasın təbriki düşərli olacaq, həm onun kitabları qədər kitablarım işıq üzü görəcək, həm də, oxucularım onun oxucular qədər çox olacaq!

Qeyd edim ki, "Ömrümün köç günlüyü" kitabım 2020-ci ilə qədər - Vətən müharibəsinə qədər yazdığım məqalə və bədii əsərlərdən ibarətdir. Qarabağ mənim yaralı yerim olduğu üçün məqalələrim demək olar ki, Qarabağ mövzusuna həsr olunub. "Ecoprint" mətbəəsində 500 tirajla çapdan çıxan kitab 326 səhifədən ibarətdir. Oxuyun qiymət verin, əziz, dəyərli oxucular!

**Əntiqə Rəşid**